Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: avqust 2021 –ci il

# Şengen vizası üçün müraciət etməyə dair ümumi məlumatlar

## 1. Mən nə zaman Şengen vizası almalıyam?

Əgər Siz bir il ərzində 180 günü əhatə edən müddət çərçivəsində, fasiləsiz **ən çox 90 gün** olmaqla Almaniya və ya digər Şengen dövlətlərinin ərazində qalmaq istəyirsinizsə (məs.: işgüzar səfər, qohum və dostların yanında qonaq olmaq, turistik səfər), bu halda Sizə Şengen vizası (C-vizası) lazımdır.

Üçüncü ölkəyə (qeyri-Şengen dövləti) səfər edən və Almaniyanın hər hansı hava limanında təyyarə dəyişmək istəyən **Azərbaycan vətəndaşlarına** beynəlxalq tranzit ərazində qaldıqları və pasport nəzarəti məntəqəsindən keçmədikləri təqdirdə **heç bir tranzit vizası lazım deyildir.** Bu yalnız Frankfurt/Main və Münxen hava limanlarında habelə zaman məhdudiyyəti olmaqla Hamburq, Düsseldorf, Köln-Bonn və Berlin-Tegel hava limanlarında mümkündür. Əvvəlcədən öz səyahət büronuzdan və ya hava yollarından tranzit ərazidən çıxmalı olacağınız terminal dəyişikliyinin zəruri olub-olmayacağını dəqiqiləşdirin. Əgər Siz Azərbaycan vətəndaşı deyilsinizsə və hava limanı üçün tranzit vizaya ehtiyac olub-olmadığını bilmək istəyirsinizsə viza şöbəsi ilə əlaqə saxlayın

Əgər Siz **90 gündən artıq fasiləsiz olaraq** Almaniyada qalmaq istəyirsinizsə məs.: təhsil, iş və ya ailə birləşməsi məqsədilə, bu halda Sizə **milli viza** (D-vizası) lazımdır. Xahiş olunur bunun üçün Siz milli viza almaq məqsədilə müraciət etmək qaydalarına dair ümumi məlumatlara və məlumat vərəqələrinə nəzər salın.

## 2. Şengen ərazisinə hansı ölkələr daxildir?

Şengen ərazisinə 26 dövlət daxildir: Belçika, Danimarka, Almaniya, Estoniya, Finlandiya, Fransa, Yunanıstan, İslandiya, İtaliya, Latviya, Lixtensteyn, Litva, Luksemburq, Malta, Niderland, Norveç, Avstriya, Polşa, Portruqaliya, İsveç, İsveçrə, Sloveniya, Slovakiya, İspaniya, Çexiya Respublikası və Macarıstan

## 3. Mən haradan bilim ki, Şengen ərazində qalmaq üçün hələ nə qədər vaxtım var?

Şengen vizası Şengen ərazisində qısa müddət **hər 180 gün müddətində ən çox 90 gün** qalmaq icazəsi verir. Beləliklə iki illik viza (C-2) hər dəfəsi 90 gün olmaqla dörd dəfə qalmaq icazəsi verir. Əgər Siz artıq fasiləsiz 90 gün Şengen ərazisində qalmısınızsa, növbəti dəfə Siz yenidən bu əraziyə 90 gün ötüb keçdikdən sonra səfər edə bilərsiniz.

## 4. Hansı hallarda mən viza üçün Alman Səfirliyinə müraciət etməliyəm?

Bakıdakı Alman Səfirliyi o halda Sizin viza müraciətiniz üçün cavabdehdir ki, Sizin daimi yaşayış yeriniz Azərbaycan ərazisindədir (daimi yaşayış yeri Azərbaycandan xaricdə olan Azərbaycan vətəndaşları viza üçün yaşadıqları yer üzrə cavabdeh olan nümayəndəliyə müraciət etməlidirlər) **və**

- yalnız Almaniyaya səfər edirsiniz **və ya**
- Siz müxtəlif ölkələrə səfər edəcəksiniz lakin səfərin müddətinə və məqsədinə görə Almaniya əsas səfər edəcəyiniz ölkə olacaqdır **və ya**
- əsas səfər məqsədi yoxdur və Siz ilk əvvəl Almaniyaya səfər edəcəksiniz

## 5. Üçüncü dövlətin vətəndaşı kimi mən viza üçün Bakıda müraciət edə bilərəmmi?

Əgər Siz qanuna uyğun şəkildə Azərbaycanda yaşayırsınızsa, Bakıdakı Alman Səfirliyi Sizin müraciətinizi qəbul etməyə görə cavabdehdir. Beləliklə Siz öz Azərbaycanda qanunauyğun yaşamağınızı məs.: yaşamaq haqqında icazənizi göstərməklə sübut etməlisiniz. Bu icazə Şengen ərazisindən çıxmaq üçün nəzərdə tutulan tarixdən **ən az üç ay** etibarlı olmalıdır.

## 6. Mən viza üçün necə müraciət edə bilərəm? Viza rüsumu nə qədərdir?

Viza ərizələrinin qəbul edilməsi kənar xidmət servisi VisaMetric tərəfindən əvvəlcədən vaxt təyin edilmədən həyata keçirilir. Viza sənədlərinin qəbul mərkəzinin ünvanı aşağıdakı kimidir:
**Bakı ş, D.Əliyeva küçəsi 106, Winter Park Plaza (1-ci mərtəbə).**

Siz viza ərizənizi həftənin bazar ertəsi - cümə günləri, saat 08:30-dan 12:00-dək əvvəlcədən vaxt təyin ETMƏDƏN təqdim edə bilərsiniz. Əgər Siz viza ərizənizi saat 13:00 -16:00 arasında təqdim etmək istəyirsinizsə, o zaman Siz qəbul vaxtını təyin etməlisiniz. Qəbul vaxtını burada təyin etməli: https://www.visametric.com/Azerbaijan/Germany/de

**Qəbul saatları** haqqında məlumat ilə burada tanış ola bilərsiniz.

**Ərizə-anket** habelə ayrı-ayrı səfər məqsədləri üçün **məlumat vərəqələri** VisaMetric və səfirlik tərəfindən ödənişsiz verilir və ya www.baku.diplo.de internet səhifəsindən əldə edilə bilər. Səfirlik ayrı-ayrı hallarda əlavə sənədlərin tələb etmə hüququnu özündə saxlayır. Sənədlərin tam şəkildə verilməsi avtomatik olaraq vizanın verilməsini bildirmir.

İngilis və ya alman dilində olmayan bütün sənədlər ingilis və ya alman dillərinə tərcümə olunmalıdır.

Səfirlik səyahət büroları ilə əməkdaşlıq etmir.

Bu telefon nömrəsi ilə (012) 599 88 12 , xaricdən 00994-12 599 88 12, VisaMetric xidməti bazar ertəsindən cümə gününədək, saat 08:30 ile 17:00 radələrində **məlumat üçün qaynar xətt vasitəsilə** vizaya dair bütün sualları cavablandıracaqdır. Bu telefon nömrəsində yalnız Azərbaycanın şəhərdaxili zəngləri üçün nəzərdə tutulan rüsum hesablanır.

**Viza rüsumu** Azərbaycan vətəndaşları üçün 35,00 avrodur, 12 yaşdan kiçik uşaqlar isə rüsumdan azaddır. Qeyri-Azərbaycan vətəndaşları üçün rüsumlara dair və ya rüsumdan azadolmalar barədə məlumatları buradan əldə edə bilərsiniz: www.baku.diplo.de. Rüsumdan azad olmaq üçün sübutlar sənəd verərkən təqdim edilməlidir.

Viza rüsumunun ödənilib-ödənilməməsi haqqında qərar yalnız sənədlər Səfirliyə daxil olduqdan sonra viza şöbəsi tərəfindən təyin edilir. Rüsumun məbləği pasport geri qaytarılarkən təqdim edilən mədaxil qəbzində əks olunacaqdır.

**VisaMetric** şirketinin xidmətləri üçün ödəniş 21 Avro məbləğindədir və ərizə ilə müraciət edərkən viza rüsumundan əlavə ödənilməlidir. Viza rüsumu və servis məbləği **Azərbaycan Manatı** ilə nağd şəkildə və kredit kartı ilə ödənilə bilər. **VisaMetric** tərəfindən təklif edilən digər servis xidmətlərindən (məs.:pasport şəkilinin çıxarılması) yararlanmaq könüllü şəkildə mümkündür.

VisaMetric servisindən istifadə etmək istəmədiyiniz halda, Sizin viza üçün birbaşa viza şöbəsinə müraciət etmək imkanınız olacaqdır. Qəbul vaxtları ödənişsiz olaraq, yer olduğu təqdirdə sərəncamınıza veriləcəkdir.

Viza rüsumu viza şöbəsində yalnız **nağd və mümkün qədər məbləğə uyğun əskinaslarla** ödənilməlidir. Qəbul vaxtını aşağıdakı link ilə təyin edə bilərsiniz:
https://service2.diplo.de/rktermin/extern/choose_realmList.do?request_locale=de&locationCode=baku.

### 7. Mən ərizə ilə müraciətimi şəxsən gələrək təqdim etməliyəm?

12 yaşına çatmış hər bir ərizəçinin **əl barmaq izləri** götürülməlidir. Bu barmaq izləri 59 ay müddətində Avropa İttifaqının viza məlumat sisteminin yaddaşında saxlanılır. Əgər Siz ilk dəfə Şengen vizası üçün müraciət edirsinizsə və ya Sizin barmaq izləriniz səfirlikdə və ya digər Şengen dövlətlərinin nümayəndəlikləri tərəfindən son 59 ay ərzində götürülməyibsə bu halda Siz sənədlərinizi **şəxsən** gətirmək məcburiyyətindəsiniz. Əks halda yenidən viza üçün müraciət edərkən sənədlərinizi Sizin səlahiyyətli nümayəndəniz də gətirə bilər. Etibarnamənin nümunəsini buradan www.baku.diplo.de əldə edə bilərsiniz. 59 ay keçdikdən sonra barmaq izləri yenidən verilməlidir.

### 8. Viza üçün nə qədər vaxt əvvəl müraciət edə bilərəm və planlaşdırılan səfərin başlanmasına nə qədər vaxt qalmış ərizəni təqdim etmək mümkündür?

Viza üçün müraciət nəzərdə tutulan səfərdən **6 ay əvvəl** təqdim edilə bilər. Bir qayda olaraq planlaşdırılan səfərin başlanmasından ən az 15 təqvim günü əvvəl viza üçün müraciət edilməlidir. **Əsaslandırılmış xüsusi təcili hallarda** səfirlik planlaşdırılan səfərin başlanmasına 15 təqvim günündən az vaxt qaldıqda viza ərizəsini qəbul edə bilər.

**9. Ərizənin işlənməsi nə qədər vaxt davam edir?**
Viza şöbəsi tam şəkildə təqdim olunmuş müraciətlərə bir qayda olaraq sənədlərin viza şöbəsinə daxil olduğu tarixdən (VisaMetric-ə təqdim edildiyi tarixdən deyil) **10 təqvim günü** ərzində baxır. Sənədlərin işlənmə müddəti ayrı-ayrı hallarda 30 təqvim gününədək uzadıla bilər, xüsusilə əlavə yoxlanış zərurəti yarandığı hallarda. Bundan başqa xahiş olunur nəzərə alasınız ki, bayram günləri ərəfəsində (Novruz, Milad/Yeni il) və yaya aylarında işlənmə müddəti vaxtaşırı uzana bilər. Bu səbəbdən xahiş olunur Viza üçün mümkün qədər vaxtında müraciət edin.

Ərizənizin işlənməsinin hansı mərhələdə olduğu barədə məlumatı istənilən zaman VisaMetric-in internet səhifəsindən əldə edə bilərsiniz.

**10. Yetkinlik yaşına çatmayanlar üçün hansı xüsusiyyətlərə diqqət yetirmək lazımdır?**
**18 yaşına çatmayan** şəxslər üçün viza üçün müraciət qəyyumlar tərəfindən həyata keçirilməlidir. Qəyyumlar həmçinin ərizə-anketi imzalamalıdırlar.

**Valideyn himayəsini sübut edən sənəd** kimi uşağın doğum şəhadətnaməsi habelə qəyyumların pasportlarının surətləri təqdim olunmalıdır. Əgər valideynlərdən biri artıq vəfat etmişdirsə və ya uşaq yalnız bir valideynin himayəsindədirsə, bu fakta dair müvafiq sübutlar təqdim olunmalıdır, məs. məhkəminin qərarı.
Yetkinlik yaşına çatmayan uşağın valideynlərdən birinin adı və soyadı doğum şəhadətnaməsində olan adlardan fərqlənirsə qohumluğu təsdiq edən əlavə sənədlər (evlilik şəhadətnaməsi, övladlığa götürlümə haqqında şəhadətnamə və ya adın dəyişilməsinə dair şəhadətnamə) sübut kimi təqdim edilməlidir.

**11.Səfər sığortası və xarici pasporta dair nələrə fikir vermək lazımdır?**
Qanuna uyğun olaraq səfər edən hər bir şəxs Şengen ərazisində qaldığı bütün müddət ərzində tibbi sığortaya malik olmalıdır. Sığorta müəyyən minimal tələblərə cavab verməlidir. Sığorta ödənişinin minimal məbləği ən az **30.000 avro** və ya **50.000 dollar** olmaqla bərabər Siz yalnız Almaniyaya səfər etsəniz belə bütün Şengen ərazisi üçün etibarlı olmalıdır. **Xahiş olunur nəzərə alasınız ki, tibbi sığorta həmçinin COVİD-19 tipli epidemiya və ya pandemiya ilə bağlı yaranan xəstəliyin müalicəsini də (30.000 avro və ya 50.000 avro məbləğində) əhatə etməlidir. Xahiş olunur sığorta şirkəti tərəfindən bu tələbin nəzərə alındığını təsdiq elətdirin.**

Tibbi sığortanın **əsli və surəti** təqdim edilməlidir. Sənədin əsli Sizə dərhal geri qaytarılacaqdır. Fikir verin ki, səfər üçün tibbi sığortanız nəzərdə tutuduğunun bütün səfər müddətində etibarlı olsun. Əgər Siz çoxdəfəli viza üçün müraciət edirsinizsə bu halda yalnız birinci səfər üçün tibbi sığortanızı təqdim etmək kifayət edir. Belə ki, ərizə-anketdə imzanız ilə Siz növbətə səfərlərinizi zamanı tibbi sefer sığortası bağlağı öhdənizə götürmüsünüz.

Sizin xarici pasportunuzun **ən az 2 boş səhifəsi** olmalıdır və Şengen ərasindən çıxmaq üçün nəzərdə tutduğunuz vaxtdan sonra hələ **an az 3 ay etibarlı** olmalıdır. Əgər soyadınız dəyişilmişdirsə məs., evlilik ilə bağlı, bu halda şəxsiyyət vəsiqəsi və xarici pasportunuz yeni soyadınız qeyd olunmaqla dəyişilməlidir.

**12. Mənə işgüzar/qonaq səfəri üçün dəvətnamə göndərilib. Başqa sənədlər də təqdim etməliyəmmi?**
Xahiş olunur ilk növbədə səfirliyin buraya aid müvafiq məlumat vərəqəsinə nəzər salın. Hər bir halda viza almaq üçün **yalnız dəvətnamənin təqdim olunması kifayət etməyəcəkdir**.

Öhdəlik haqqında bəyannamələr dəvət edən şəxsin yaşayış yerindəki Miqrasiya idarələri tərəfindən verilir. Bu bəyannamələr səfirliyə sənəd verərkən **altı aydan köhnə olmamalıdırlar**.

İşgüzar dəvətnamələrdə xahiş olunur fikir verin ki, dəvətnamə şirkəti **təmsil etmə hüququna malik əməkdaş** tərəfindən imzalanmış olsun. Təmsil etmə hüququ ticarət məcəlləsi, ticarət reyestri və ya şirkətdaxili etibarnamələr əsasında müəyyən olunur. Tələb olunduğu təqdirdə etibarnamələr təqdim olunmalıdır.

İşgüzar və ya tibbi müalicə məqsədli dəvətnamələrdə və ya dəvət məktublarında müşayiətçi şəxsin (həyat yoldaşı, az yaşlı uşaqlar) olduğu kimi müşayiətçi qismində dəvət olunduğu bildirilməli və dəvətnamədə adı qeyd olunmalıdır.

**Dəvətnamənin əvvəlcədən poçt, faks və ya email vasitəsilə əvvəlcədən və ya paralel göndərilməsinə**

**ehtiyac yoxdur.**

### 13. Mənim xarici pasportum dolmuşdur. Mən vizamı yeni pasporta köçürdə bilərəmmi?

Bəli. Əgər Sizin xarici pasportunuzda heç bir boş yer yoxdursa, lakin həmin pasportdakı vizanız hələ qüvvədədirsə Sizin vizanız rüsumsuz yeni pasportunuza köçürülə bilər. Bunun üçün Siz öz köhnə və təzə pasportunuzu təqdim etməlisiniz. Xahiş olunur nəzərə alın ki, viza yeni pasporta köçürülərkən müddət uzadılmır. Əgər köhnə pasportunuzda boş səhifələr varsa bu halda vizanın yeni pasporta köcürülməsi rüsumla həyata keçiriləcəkdir.

### 14. Mən öz xarici pasportumu necə geri ala bilərəm?

Viza üçün servis şirkəti VisaMetric vasitəsilə müracət edərkən pasportun geri verilməsi də həmçinin VisaMetric vasitəsilə həyata keçiriləcəkdir. VisaMetric pasportun geri göndərilməsi üçün ödənişli kuryer xidməti də təklif edə bilər. Bu xidmət üçün artıq ərizə verərkən rüsum ödənilməlidir.

Sənədlərinizi səfirlikdə təqdim etdiyiniz təqdirdə Siz pasportunuzu səfirliyin pasportların verilməsi üçün təyin edilmiş xüsusi saatında geri götürə biləcəksiniz. Xahiş olunur sənədlərinizi verərkən Sizə təqdim edilmiş nömrəni və şəxsiyyət vəsiqənizi gətirin.

**Xahiş olunur pasportu əlinizə aldıqdan sonra bütün məlumatların rüsum da daxil olmaqla düzgünlüyünə fikir verin. Sikayətlərinizi dərhal Səfirliyin viza şöbəsinə bildirin (VisaMetric-ə deyil).**

Açıq şəkildə nəzərə çatdırılır ki, viza avtomatik olaraq ölkəyə daxil olmaq hüququnun olduğunu bildirmir. Son qərar ölkəyə daxil olarkən sərhəd keçid məntəqələri tərəfindən verilir. Məsləhət görülür ki, viza üçün müraciət zamanı təqdim etdiyiniz əsas sənədlərinizin (xüsusilə dəvətnamə/otel reservasiyası, maliyyə vəsaiti haqqında sübüt və səfər üçün tibbi sığorta) əslini ölkəyə səfər edərkən özünüzlə götürün.

### 15. Mənim viza ərizəmə imtina cavabı verildiyi halda mən nə etməliyəm?

Sizin ərizənizə imtinanın səbəbləri **imtina cavabı vərəqəsində** öz əksini tapmışdır. Xahiş olunur nəzərə alın ki, Siz müvafiq məlumat vərəqəsində sadalanan sənədləri tam şəkildə təqdim etmiş olsanız belə, imtina cavabı ala bilərsiniz. Sənədlərin hamısının təqdim olunması viza verilməsinə zəmanət vermir.

İmtina cavabı aldığınız təqdirdə bu qərara qarşı etirazınızı məlumatı aldığınız vaxtdan etibarən bir ay ərzində bildirə bilərsiniz. **Etiraz məktubunuzu** faks, qoşma kimi email ilə və ya əslini səfirliyə göndərə bilərsiniz. Məktubda Sizin şəxsi məlumatlarınız və Sizin pasportunuzun nömrəsi qeyd olunmalıdır ki, məktubun hansı ərizəyə aid olduğu təyin edilə bilsin. Məktubda Siz həmçinin bildirməlisiniz ki, imtina cavabının səhv qərar hesab etdiyinizi nə ilə əsaslandırırsınız. Fikir verin ki, məktub **imzalanmış** olsun. Xahiş edirik viza verilməsi üçün xeyirli olduğunu hesab etdiyiniz əlavə sənədləri də məktuba əlavə edin. Məktub alman və ya ingilis dillərində yazıla bilər.

Sizin etiraz məktubunuz səfirliyə daxil olduqdan sonra Səfirlik viza ərizənizi **yenidən yoxlayacaqdır**. Xahiş olunur nəzərə alın ki, əlavə sənədlər və ərizəyə dair digər izahatlar olarsa etiraz ərizənizin uğurlu nəticələnə bilmək ehtimalı mövcuddur.
Etiraz ərizəsi xronoloji ardıcıllıqla işlənilir və işlənmə müddəti viza şöbəsinin işinin çoxluğundan asılı olaraq **12 həftəyədək** davam edə bilər.

Etiraz məktubu ilə yanaşı **yeni ərizə ilə viza üçün müraciət** etmək və ya Berlindəki inzibati məhkəmədə iddia qaldırmaq imkanı da vardır. Əgər artıq etiraz ərizəsini yazmısınızsa, onun işlənməsi viza üçün yenidən müraciət edilən kimi dərhal dayandırılacaqdır.

**Dəvət edən şəxs** kimi Sizin ərizə haqqında məlumat almaq hüququnuz bir qayda olaraq yoxdur və Siz imtina cavabına etiraz edə bilmərsiniz. İstisna yalnız bir halda olur ki, ərizəçi Sizə bunun üçün **etibarnamə ilə səlahiyyət vermişdir.**